TƏLƏBƏ ELMİ CƏMİYYƏTİ

"Təsdiq edirəm"
Lənkəran Dövlət Universitetinin rektoru
___________ prof. N.S.İbrahimov

"__"_______2021-ci il

# Lənkəran Dövlət Universitetinin Tələbə Elmi Cəmiyyətinin Əsasnaməsi

*Tələbə Elmi Cəmiyyəti Azərbaycan Respublikası Prezidentinin 22 may 2009- cu il tarixli 295 nömrəli Sərəncamına uyğun olaraq Azərbaycan Respublikası Təhsil Nazirinin 27.06.2014-cü il 752 nömrəli əmri ilə təsdiq edilmiş "Ali müəssisələrində təhsil alanların elmi-tədqiqat işinin təşkili haqqında Əsasnaməyə" uyğun şəkildə işlənib hazırlanmışdır.*

## Tələbə Elmi Cəmiyyətinin Əsasnaməsi

Tələbə Elmi Cəmiyyəti (TEC) tədqiqat işi ilə fəal məşğul olan tələbələrin təhsildə və elmdə ümumi maraqlarına əsaslanan ictimai özünüidarə orqanı olaraq, elmin inkişafına xidmət edir. TEC əlaqələndirmə orqanı olaraq fakültələrdə, kafedralarda və laboratoriyalarda tələbələrin elmi-tədqiqat işlərinin təşkilini həyata keçirir. Universitetin tələbələri TEC-in üzvü ola bilərlər.

TEC öz fəaliyyətini Azərbaycan Respublikasının Konstitusiyası, Təhsil Qanunu, Lənkəran Dövlət Universitetinin Nizamnaməsi və öz Əsasnaməsinə uyğun həyata keçirir.

## 1. TEC-in fəaliyyətinin əsas məqsədləri

- tələbələrin elmi yaradıcılıq təşəbbüslərinin formalaşdırılması;
- mütəxəssis hazırlığının keyfiyyətinin artırılması, tədris olunan fənnlərin dərindən öyrənilməsinin stimullaşdırılması;
- elmi və elmi pedoqoji kadr ehtiyatının formalaşdırılması;
- yeni biliklərin əsası olan fundamental tədqiqatlara marağın artırılması;
- tələbələrin müasir elmi metodologiyalarla, habelə elmi etika normaları ilə tanış edilməsi, onlarla elmi ədəbiyyatla işləmək qaydalarının öyrədilməsi;
- tələbələrə elmi layihə, məruzə və məruzə tezislərini hazırlamaq, elmi tədbirlərdə (seminar, konfrans və s.) çıxış etmək və diskussiya aparmaq bacarığının aşılanması.

## 2. TEC-in fəaliyyətinin əsas vəzifələri

- məqsədlərin həyata keçirilməsi üçün şəraitin yaradılması;
- müvafiq sahədə təcrübəli ekspert və elmi mütəxəssislərlə görüşlər keçirilməsi;
- tədqiqat fəaliyyəti ilə məşğul olan gənclərin elmi nəticələrini müzakirə etmək üçün elmi seminarların, konfransların və dəyirmi masaların təşkili;
- tələbələrin elmi işlərinin müsabiqələrinin və onların nəşrinin, elmi dərnəklərin və fənn olimpiadalarının təşkili;
- elmi tədqiqatların metodikasına dair məşğələlər keçirir;

## 3. TEC aşağıdakı struktur əsasında fəaliyyət göstərir

3.1. TEC-in işi universitetin, fakültənin, kafedranın elmi iş planına daxil edilir və universitetin (fakültənin, kafedranın) illik hesabatında “Tələbələrin elmi tədqiqat işi” bölməsində əks olunur.

3.2. TEC-in işinin təşkilinə görə məsuliyyəti rektor (fakültədə -dekan, kafedrada-kafedra müdiri) və Tələbə Elmi Cəmiyyəti Şurasının sədri daşıyır.

3.3. Hər fakültədə və kafedrada TEC-ə cavabdeh olan şəxs (ştatda olan elmi-pedaqoji kadrlar sırasından) müəyyən edilir və fakültənin Elmi şurasında, yaxud kafedra iclasında təsdiq olunur.

3.4. TEC-in ilkin struktur vahidi: Universitetin kafedraları nəzdində təşkil olunan tələbə elmi dərnəyidir. Dərnək rəhbəri Fakültə TEC sədrinə tabedir.

***Dərnək rəhbərinin fəaliyyətinə aşağıdakılar daxildir:***

- TEC iclaslarının təşkilini təmin edir;
- dərnəyin kontingentini formalaşdırır;
- dərnək üzvlərinin hazırlıq səviyyəsini müəyyən edir;
- keçirilmiş elmi tədqiqatların metodikası ilə dərnək üzvlərini tanış edir.
- tələbələrin elmi fəaliyyətinə cari nəzarəti həyata keçirir;
- dərnək üzvlərinin ən yaxşı işlərinin seçimini aparır, onların dərc edilməsi və konfranslara, müsabiqələrə göndərilməsini təmin edir;

3.5. TEC xətti ilə elmi tədqiqat işi aparan tələbələrə elmi rəhbərlik universitetdə çalışan hər bir müəllimin fərdi iş planının tərkib hissəsi sayılır.

3.6. Fakültədə tələbələrin elmi işlərinə cavabdeh olan Fakültə Tələbə Elmi Cəmiyyəti Fakültə Elmi Şurasının qərarı əsasında təşkil olunur.

3.7. Universitet TEC-i bütün fakültələr üzrə TEC- in fəaliyyətini birləşdirir və əlaqələndirir.
3.8. TEC-in idarə olunması TEC Şurası tərəfindən həyata keçirilir. TEC Şurasının tərkibi fakültə TEC-in nümayəndələri tərkibindən seçilir.
3.9. TEC-in rəhbəri Universitetin Elmi Şurası tərəfindən təklif edilir və Universitetin rektorunun əmri ilə təsdiq edilir.
3.10. TEC-in fəaliyyətinə ümumi rəhbərlik Elm və innovasiya məsələləri üzrə prorektor tərəfindən həyata keçirilir.

## 4. TEC-in fəaliyyətinin təşkili

- TEC-in ilkin struktur vahidi olan tələbə elmi dərnəyinin fəaliyyəti kafedrada aparılan elmi işlərin istiqamətlərinə uyğun qurulur;
- TEC-ə cəlb olunan hər bir tələbəyə tədris ilinin əvvəlində kafedra iclasında elmi rəhbər təyin edilir, onun tədqiqat mövzusu müəyyənləşdirilir və "Tələbə elmi tədqiqat işinin təqvim planı" tərtib olunur (nümunəsi əlavə edilir). Həmin plan tələbə və onun elmi rəhbəri (müəllim) tərəfindən imzalanır. "Tələbə elmi tədqiqat işinin təqvim planı"nı kafedra müdiri üç nüsxədə təsdiq edir. Təsdiq edilmiş planın bir nüsxəsi tələbədə, digər nüsxəsi kafedrada saxlanılır, üçüncü nüsxəsi TEC şurasına təqdim olunur;

Kafedra öz iclasında:

- dərnəyin rəhbərini, dərnək üzvlərinin siyahısını təsdiq edir;
- elmi dərnəyin iş planını və tələbə elmi tədqiqat işinin təqvim planını təsdiq edir;
- tələbələrin gördükləri işlərin nəticələri barədə məlumatlar və məruzələr dinlənilir;
- Tədris ilinin sonunda TEC-in sədri Universitet Elmi Şurası qarşısında hesabat verir.

## 5. Tələbələrin və müəllimlərin rəğbətləndirilməsi

5.1. TEC-in təşkilində əldə etdikləri nailiyyətlərə görə tələbələr universitet rəhbərliyi tərəfindən fəxri fərman, diplom, qiymətli hədiyyələr və s. rəğbətləndirilə bilər.
5.2. Elmi nailiyyətlər qazanmış tələbələr xarici ölkələrdə keçirilən elmi olimpiada, konfrans , müsabiqə və sərgilərdə iştirak etmək üçün universitet vəsaiti hesabına göndərilə bilər.
5.3. Fəal elmi işlə məşğul olan və təhsildə yüksək göstəricilər əldə edən tələbələrə qanunvericiliklə nəzərdə tutulmuş qaydada adlı təqaüdlər verilə bilər.

5.4. Yüksək elmi nailiyyətlər əldə edən tələbələrin elmi rəhbərləri və Tələbə Elmi Cəmiyyətinin fəal üzvləri təhsil müəssisələrinin rəhbərliyi tərəfindən rəğbətləndirilə bilər.

Lənkəran Dövlət Universiteti
Tələbə Elmi Cəmiyyətinin sədri
Coğrafiya və onun tədrisi metodikası
kafedrasının müəllimi

___________________ S.M.Salayev

LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ
1992
TƏLƏBƏ ELMİ CƏMİYYƏTİ